# Qəbələ Qafqazın ən mühüm turizm mərkəzlərindən birinə çevrilməkdədir

Qəbələ rayonunun turizm sektoru təbiət mənzərələri, tarixi abidələri, mədəniyyət ocaqları və müasir turizm



kompleksləri baxımından zəngin imkanlara malikdir.

Rayonumuzun gözəl təbiəti, heyranedici mənzərələri, tarixi yerləri turistləri özünə cəlb edir, onlarda xalqımızın milli mədəniyyəti haqqında böyük təəssürat yaradır. Bunun nəticəsidir ki, bura gələn turistlərin sayı ilbə il artmaqdadır.

Qəbələyə gələn turistlərin rahatlığı üçün hər cür şərait yaradılır, onlar rahat mehmanxanalarda yerləşdirilir. 2019-cu ilin birinci yarımili ərzində rayonda 15 mehmanxana və mehmanxana tipli müəssisə fəaliyyət göstərmişdir. Həmin müəssisələrdə mövcud olan 991 nömrədə yerlərin ümumi sayı 2258 ədəddir. İlin ötən dövrü ərzində 13484 carpayı yerdən istifadə edilmişdir. Bir gün qalmaq üçün orta qiymət 91,3 manat təşkil edir.

2019-cu ildə turizm müəssisələrinə 67333 nəfər qəbul edilmişdir ki, onlardan Azərbaycan vətəndaşları 36,6 faiz və ya 24611nəfər, xarici ölkələrin vətəndaşları 63,4 faiz və ya 42722 nəfər olmuşdur.

Eləcə də həmin dövr ərzində bu obyektlərə 42722 nəfər xarici ölkə vətəndaşı yerləşdirilmişdir ki, onların 1752 nəfəri Bəhreyn, 7948 nəfəri Birləşmiş Ərəb Əmirlikləri, 369 nəfəri Çin, 2240 nəfəri Küveyt, 2676 nəfəri Rusiya Federasiyası, 1430 nəfəri Qətər, 1760 nəfəri Oman, 10036 nəfəri Səudiyyə Ərəbistanı, 464 nəfər İraq, 964 nəfər İsrail, 1728 nəfəri Hindistan, 11355 nəfəri isə digər ölkələrin vətəndaşları olmuşdur.

Göstərilənlər onu deməyə əsas verir ki, Qəbələ Qafqazın ən mühüm turizm mərkəzlərindən birinə çevrilməkdədir.

**Ayaz İSGƏNDƏROV,**
**rayon ststistika idarəsinin rəisi.**

# Seminar-müşavirə

Fövqəladə Hallar Nazirliyinin (FHN) Şimal-qərb Regional Mərkəzinin təşkilatçılığı ilə 6 saylı regional sukanal idarəsinin Qəbələ sukanal sahəsində "Fövqəladə hallarla bağlı davranış qaydaları" mövzusunda seminar-müşavirə keçirilib.

Müşavirədə Şimal-qərb Regional Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-mədən Nəzarəti Müfəttişliyinin və regional sukanal idarəsinin əməkdaşları iştirak ediblər.

Əvvəlcə məruzəçilər tərəfindən "Fövqəladə halların qarşısının alınmasında təbliğatın rolu", "İdarə və təşkilatlarda fövqəladə hallara hazırlığın təşkili", "Sənaye müəssisələrində texniki təhlükəsizlik qaydaları", "Yanğın təhlükəsizliyi qaydaları", "112" xidmətindən düzgün istifadə qaydaları mövzularında çıxışlar edilib.

Sonra fövqəladə hallarla bağlı mövzulara diqqətin daha da artırılması, həmçinin bu səpgidə mütəmadi söhbətlərin aparılması tövsiyə olunub, suallar cavablandırılıb.

**"Qəbələ"**

# Tarixin əvəzsiz yadigarı

**(Əvvəli ötən sayımızda).**

Hündürlüyü 14 m olan bu bürc düzbucaqlı formasındadır. Yonulmuş çay daşı və əhəng məhlulu ilə tikilib, daha sonra isə tuf daşdan üzlük vurulub. Mütəxəssislərin fikrincə, e.ə I əsrdə tikilən bu bürc əsrlər boyu şəhərin etibarlı müdafiə sisteminə xidmət etmişdir. Qeyd olunan bürcdən bir qədər şimal tərəfdə tədqiqatlar davam etdirilərkən orada uzunluğu 35 m, hündürlüyü 1 m, qalınlığı isə 2,4 m olan divar qalıqları aşkara çıxarılmışdır. Həmin divar da yonulmuş tuf daşdan və əhəng məhlulundan istifadə olunmaqla inşa edilmişdir.

80-ci illərin ortalarında təcrübəli arxeoloq Qara Əhmədov tərəfindən Səlbirin cənub və cənub-şərq küncündə qala divarları öyrənilmişdir. Bu zaman qalanın cənub-şərq küncündə yarımdairəvi formada olan daha bir nəhəng bürcün qalıqları aşkara çıxarılmışdır.

Həmin illərdə Firudin Qədirov da səhərin cənub qala divarlarının arxeoloji cəhətdən öyrənilməsinə cəhd göstərmişdir. Bu məqsədlə qala darvazası ətrafında aparmış qazıntılar zamanı çoxsaylı küp qəbirləri aşkar edilmiş, orada antik dövrə və ilk orta əsrlərə aid çoxlu yaşayış binaları, ictimai binalar və istehsal ocaqları üzə çıxarılmışdır.



Ömər İsmizadə isə 1960-cı ildə Qalanın şərq hissəsində, Covurlu çayının sahilində ilk orta əsrlərə aid bir neçə tikinti qalığı aşkar etmişdir.

1961-ci ildə Saleh Qazıyevin rəhbərliyi ilə Qalanın mərkəzi hissəsində açılan nəhəng ictimai bina indiyədək Qəbələ qazıntılarından bəlli olan nəhəng ictimai bina qalıqlarından hesab edilir. Binanın bünövrəyə yaxın hissələri iri ölçülü yonulmuş əhəng daşından, üst hissəsi isə kvadrat formalı bişmiş kərpiclərdən istifadə olunmaqla inşa edilmişdir. Ömər İsmizadə və Saleh Qazıyev tərəfindən aşkar edilən hər iki tikintinin IX əsrə aid olduğu güman edilir.

Qəbələdə aparılan tədqiqatlar şəhərin su təchizatı şəbəkəsini öyrənmək baxımından da maraq doğurur. Məsələn, Saleh

**(Ardı 7-ci səhifədə).**

# Maarifləndirmə vacib məsələlərdəndir

***İcbari tibbi sığorta hökumətin həyata keçirdiyi sosial layihənin tərkibində yer alır. Şübhəsiz ki, burda ilk növbədə vətəndaşlarımızın maraqlarının təmin olunması əsas götürülür. Prezident İlham Əliyevin tapşırığına əsasən, icbari tibbi sığortanı qısa zamanda və vətəndaşların mənafeyinə uyğun şəkildə tətbiq etmək nəzərdə tutulur.***

2016-cı ilin fevral ayında Respublika Nazirlər Kabineti yanında fəaliyyətə başlayan İcbarti Tibbi Sığorta üzrə Dövlət Agentliyi ölkədə həm dövlət, həm də özəl tibb müəssələrinin yenidən qurulmasına və inkişafına, yeni tibb müəssələrinin dünya standartlarına uyğun təşkilinə, eyni zamanda icbari tibbi sığortaya keçilməsinə şərait yaradır. Bununla əlaqədar respublikanın 3 bölgəsində--Mingəçevir şəhərində, Yevlax və Ağdaş rayonlarında İTS-nın pilot layihəsinə başlanılmışdır.

İTS dünya səviyyəsində geniş yayılmış tibbi xidmətlər modeli olmaqla həmrəyliyə əsaslanan sosial layihədir. Yəni insanlar xəstələnmədiyi halda da müəyyən fondlara vəsait keçirir və onlar cəmlənir. Xəstəliyi olan insanlar bu vəsaitdən istifadə etməklə müalicə ola bilir və bu qaydada insanlar bir birinə qarşılıqlı yardım etmiş olurlar.

Beləliklə İTS sayəsində insanlar hər zaman əllərində maliyyə vəsaitinin olub-olmamasından aslı olamayaraq dövlətin zəmanət verdiyi tibbi xidmətləri pulsuz əldə etmiş olurlar.

Azərbaycanda İTS-a 2020-ci ilin yanvar ayının 1-dən bütün rayonlarda başlanılması nəzərdə tutulub. Bu xidmətdən vətəndaşlar, müvəqqəti və ya daimi yaşamaq üçün icazəsi olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər faydalana biləcəklər.

İTS tibbi xidmətin keyfiyyətinə də nəzarət edilməsinə, həkimlərin məsuliyyətinin artırılmasına, insanların səhiyyə xidmətlərinin əlçatanlığının təmin edilməsinə şərait yaradır. Bununla həkimlərin xəstələrə yazdığı müalicəyə üçüncü bir tərəf nəzarət edəcək, çünki həkimin yazdığı müalicə və dərmanlar barədə məlumat İTS agentliyinə daxil olacaq.

İTS müvafiq fonda müəyyən sığorta haqqı köçürməklə maliyyələşir. İşləyənlər öz maaşlarından, şirkətlər işçilərinin adına, müvafiq dövlət qurumları isə çalışmayan şəxslər--təqaüdçülər, uşaqlar və işsizlər üçün fonda ödəniş edirlər.

18 yaşa qədər uşaqlar, sağlamlıq imkanları olmayan bütün insanlar, az təminatlı ailələr, tələbələr, təqaüdçülər bu xidmətdən pulsuz istifadə edəcəklər.

Ambulator şəraitdə müayinə və müalicə, stasionar müalicə, funksional-diaqnostik müayinələr, fizoterapevtik xidmətlər, labarotor müayinələr, hamiləlik və doğuş xidmətləri, təcilli vaksinasiya, uşaqlara peyvənd, cərrahi əməliyyatlar, dispanser müşahidə sığorta zərfinə daxil olan xidmətlərdir.

Beləliklə, vətəndaşlar İTS-da az pul ödəməklə daha yüksək və bahalı xidmətlərdən yararlanacaqlar.

Rayon mərkəzi xəstəxanasında və müalicə-diaqnostika mərkəzində də 2020-ci ilin ilk günündən icbari tibbi sığortaya keçilməsi ilə əlaqədar müəyyən hazırlıq işlərinin görülməsinə başlanılmışdır.

Biz səhiyyə işçiləri hesab edirik ki, əhalinin icbari tibbi sığorta sisteminə keçidə hazırlanması ilə bağlı maarifləndirilməsi və onlarda bununla bağlı müəyyən məlumatların olması bu gün səhiyyə təbliğatının ən vacib məsələlərindəndir.

***Cavanşir MƏLİKOV,***
**RMX-nın baş həkiminin müavini.**

# Təlim keçirilib

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində "Qadınların məşğulluğunun artırılması eləcə də onlar arasında kiçik sahib-



karlığın inkişaf etdirilməsi, peşə hazırlığının gücləndirilməsi, maliyyə savadlılığının və informasiya texnologiyalardan istifadə bacarığının artırılması" istiqamətində "Sahibkar qadın"adlı təlim keçirilib.

Təlimdə Qəbələ UADM-in əməkdaşları, Heydər Əliyev Mərkəzinin kollektivi və şəxsi biznesini qurmaq istəyən evdar qadınlar iştirak ediblər.

Təlimi giriş sözü ilə açan Qəbələ UADM-in direktoru Günel Ağayeva qadınların qurmaq istədikləri işin təşkili haqqında məlumat verib.

Sosial iş üzrə mütəxəsis Hökümə İsmayılova iştirakçılara uğur qazanmağın yolları, problemlərin həlli istiqamətində görüləcək vacib işlərdən danışıb.

Dəyirmi masa arxasında keçirilən təlim qarşılıqlı fikir mübadiləsi ilə başa çatıb.

Sonda iştirakçılara bukletlər paylanılıb.

**Fərid RAMAZANLI,**
**mərkəzin sosial iş üzrə mütəxəssisi.**